"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 03 (10) ✦ 31 mart 2025-ci il

## Balakən şəhər Mərkəzi Cümə məscidinə rayonun hər yerindən cuma namazını qılmaq üçün möminlər gəlir



İslam dini, Allahın yaratdığı insan üçün düzənlədiyi və önərdiyi bir həyat tərzi, yaşam biçimidir. Əcdadlarımızdan bu yana yaşayaraq mənimsədiyimiz İslam dini həm mənəvi dəyərimiz həm də mədəniyyətimizdir. Bir çox davranışların, məsələn sağ əllə yemək, nemətlərinə görə Allaha təşəkkür etmək, uşaq doğulanda qulağına əzan oxumaq, ailə quranda rəsmi nigahla bərabər dini kəbin kəsdirmək kimi bəziləri gündəlik həyat tərzimizdə var olan dəyərlərdir. Dünyada gerçək İslamın yaşandığı artıq çox az yer var və bölgəmiz olan Balakən-Şəki zonası da bu azlıqdadır..

Ateist sovet işğalından qurtulduqdan sonra sovetin anbarlara çevirdiyi ibadət yerləri əvvəlki statusuna qayıtmasıyla yanaşı imana gələnlərin, ibadətə başlayanların sayı da artmışdır. Artıq bu gün Balakəndə bəzi məscidlər bu tələbatı ödəyə bilmir.Balakən şəhər Mərkəzi Cümə məscidi bunlardan biridir. Artıq neçə illərdir məscid, əsasən də cuma namazında içərisi dolur, insanlar ayaqqabı soyunan yerdə və eşikdə həyətin yarısına qədərki məsafədə, torpağın üstündə cuma namazını əda edirlər. Yay fəslində günəş yandırsa da çöldə birtəhər dözə bilirsən amma qış və digər iki fəsildə yağmurlu, palçıqlı,küləkli, soyuq havalarda bu həm mənəvi olaraq yaraşıq almır həm də sağlıq yönündən təhlükəlidir. Ruhun qidasını təmin edim deyərkən cismimizi təhlükəyə atırıq. Bu cür ibadəti heç Rəbbim də qəbul etmir.

Balakən şəhər Mərkəzi Cümə məscidinə rayonun hər yerindən cuma namazını qılmaq üçün möminlər gəlir və bu insanların bir istəyi, tələbi var. Aidiyyatı qurumlardan məscidin tutumunun çoxaldılması istiqamətində işlər görməsini istəyirlər. Məsələn, belə bir təklifimin reallaşmasına imkan olduğunu gördüyüm üçün icra edəcək quruma bildirmək istəyirəm ki, məscidin tavanı yetərincə hündür, dayaq sütunları sağlamdır. Məscidin içərisində, ortadan arxaya doğru yüngül inşaat materialdan ikinci mərtəbə yaratmaq olar. Elə çöldə qalanlar məscidin yarısını dolduracaq qədərdirlər. Əgər bunu etmək üçün vəsait yoxdur və sairə bahanələr olacaqsa bunu insanımız ianələr hesabına da edə biləcəklər, yetərki siz əl-ayağa dolaşmayın. Yaradanla yaradılan, insanla-Allah arasına girməyin.

**Ramazan ABAL**



Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri tərəfindən bölgələrdə vətəndaş qəbulları keçirilir.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun imzaladığı əmrə əsasən, Nazirliyin Aparat rəhbəri Azad Cəfərli martın 18-də Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) inzibati binasında Balakən rayonundan olan vətəndaşların qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbulda vətəndaşların müraciətləri əsasən subsidiyanın alınması, toxumçuluq, pomidor əkini və qablaşdırılması üçün avadanlıqla təmin olunmasına köməklik göstərilməsi, torpağın sənədləşdirilməsi və digər məsələlərlə bağlı olub.

Aparat rəhbəri Azad Cəfərli hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

## Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Azad Cəfərli Balakəndə vətəndaşları qəbul edib, təsərrüfatlara baş çəkib



Vətəndaş qəbulu başa çatdıqdan sonra Azad Cəfərli Balakən DAİM-in kollektivi ilə görüşüb, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyat və yeniliklər, iş prosesinin təşkili, əkinlərin bəyanı prosesi ilə maraqlanıb, öz tövsiyə və tapşırıqlarını verib.

Daha sonra Azad Cəfərli rayon ərazisində yerləşən toxumçuluq təsərrüfatlarına baş çəkib, görülən işlərin gedişi ilə maraqlanıb. Fermerlərlə görüşdə aqrar sahəyə dövlət dəstəyi tədbirləri, toxumçuluğun inkişafı müzakirə olunub, aqrotexniki tədbirlərin vaxtında və düzgün həyata keçirilməsinin vacibliyi barədə fikir mübadiləsi aparılıb.

**YENİ BALAKƏN**



## MİLLİ BAYRAMIMIZ OLAN NOZRUZU BALAKƏNLİLƏR YÜKSƏK ƏHVAL RUHİYYƏDƏ, SEVİNCLƏ QEYD EDİRLƏR



Milli bayramımız olan Nozruzu Balakənlilər yüksək əhval ruhiyyədə, sevinclə qeyd edirlər. Təbiətin şıltaqlığı Novruza rəng gətir, ahəng gətirir,öz şərtlərinə tabe edir necə ki, Novruz bir təbiət bayramıdır. Balakəndə bu il təbiət Novruza yağmurla qatılmışdı, buna rağmən Novruz tonqalı gur və alovlu yanırdı.

Bu gün Balakən Mədəniyyət Mərkəzin qarşısında, rayon mərkəzində keçirilən Novruz bayramı şənliyi onu təşkil edənlərin və tədbir iştirakçılarının sayəsində gözəl keçdi. Tədbir rayon rəhbrinin Novruz ton qalını yandırması ilə başladı.Tədbirdə çıxış edən Balakən RİH-in Başçısı İslam Rzayev Balakənliləri Novruz Bayramı münasibətilə təbrik edərək, təbiətin oyanışı ilə başlayan bu yeni ilin bol ruzili, bərəkətli olmasını dilədi. Mədəniyyət Müəssisələrinin, folklor qruplarının, Balakən şəhər Uşaq İncəsənət Məktəbinin maraqlı,yadda qalan təqdimatındakı ifalar,əl işləri, rəsm və muzey sərgiləri iştirakçılarda bayram əhval ruhiyyəsi yaradır, alqışlarla qarşılanırdı...

Əziz Balakənlilər, Novruz bayramınız mübarək olsun! Neçə belə bayramlara.

**YENİ BALAKƏN**



# Balakəndə "Konstitusiya və Suverenlik İli" çərçivəsində ağacəkmə aksiyası keçirildi





Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Ölkəmizdə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planına müvafiq olaraq Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Yevlax-Zaqatala-Balakən-Gürcüstan dövlət sərhəddi magistral avtomobil yolunun Balakən rayonunun Katex və Qazbinə kəndləri ərazisindən keçən hissəsində ağacəkmə aksiyası təşkil olunmuşdur. Aksiyada Balakən Rayon İcra Hakimiyyətinin başçısı və aparat işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə rəhbərləri və müavinləri, həmin ərazinin inzibati ərazi dairələri üzrə nümayəndələri və bələdiyyələri və ictimai fəallar iştirak etdilər. Ağacəkmədən öncə ağacların mühafizəsi üçün dəmir barmaqlıqlarla mühafizəsi təşkil olunaraq əraziyə su xətti də çəkildi.

Ağacəkmə aksiyası zamanı əraziyə həmişəyaşıl şam ağacları əkilərək onlara aqrotexniki qulluq göstərilmişdir.

**Turan DİBİROV,**
**Balakən RİH Başçısının birinci müavini**





# Ramazan ayı bərəkəti



Ramazan ayı bərəkəti,oruc ibadəti, təravif namazlarıyla,sahur və iftarları ilə davam edir. Uzun illərdir Ramazanlarda davam edən daha bir ənənəmiz də var. Oruclular üçün açılan iftar süfrələri, ediilən yardımlar Ramazanın əsas gözəllikləri olmaqla yanaşı həm də xeyirsevər insanların səvabda, xeyirxahlıqda yarışdığı işlərdir. Balakəndə də uzun illərdir hörmətli millət vəkilimiz Nəsib müəllim öz ənənəsini davam etdirir. Dünən Balakən şəhər möminləri,bu gün Qaysa kənd sakiləri üçün açılmış iftar süfrələrində inanclı insanlarımızla bir araya gəldik,orucumuzu iftar etdik. Qaysa kənd sakini Rəşad Qaysayev dövlət Başçısının dindarlara, insanlara dinini azad yaşamağa, yaşatmağa yaratdığı şəraitə görə kənd sakinləri adından cənab Prezidentə, həmçinin bu günkü iftar süfrəsinə görə də Nəsib müəllimə təşəkkürünü bildirdi. Nəsib müəllim martın 15-i vətəndaş qəbulu keçirərək, qəbula gələnlərin məsələlərinin həlli yerindəcə mümkün olanı dərhal həll etdi, zamana ehtiyacı olanları isə köməkçisinə tapşırdı. Geridə qoyduğumuz günlərdə Xalatala kəndindən keçən Mazımçay üzərindəki körpünün sağlamlaşdırılması üçün maddi dəstək olmuş, daha əvvəl isə Meşəşambul kənd bağçasının pəncərə və qapılarına öz vəsaiti hesabına şüşələr taxdırmış hansı ki,şüşələr çoxdan qırılmış əvəzində üzərinə parça və "klyonka" dediyimiz polietilen örtükdən müvəqqəti örtük çəkilmişdi. İndi isə Qaysa Sənərkarlıq Evinin güclü külək və yağış nəticəsində uçmuş,dağılmış tavanının və dam örtüyünün bərpası üçün gərəkən dəstəyi göstərir. Allah verən əlləri bol və yaxın, alan əlləri isə uzaq etsin Balakənimdən. Allah iftar edənlərin orucunu, onlara belə süfrələri açanların niyyətini, bu xeyirxah əməlini qəbul etsin. Amin.



**YENİ BALAKƏN**

# 31 Mart soyqırım qurbanlarının, şəhidlərinin xatirəsini dərin ehtiramla anırıq





1918-1920-ci illər Birinci Dünya müharibəsindən sonra yeni dünya düzəni quran, şəkilləndirən, başını ingilisin çəkdiyi kürəsəl güclər indilərə qədər gələcək, iki qütblü dünya üçün öncə çar Rusiyasının başına hazırladıqları Lenini bolşevikləri ilə birgə gətirərək Sovet kommunist sosialist dövləti yaratdı. Artıq yıxılmaq üzrə olan Osmanlı dövlətinə bağlı yerləri, əyalətləri o sırada ətrafda yenicə müstəqilliyini elan etmiş Azərbaycan Demokratik Respublikasını da qanlı iğtişaşlarla, soyqırımla sovetlərin tərkibinə qataraq rusun nəzarətinə verdilər.

Bu qanlı iğtişaşlardan biri Azərbaycanlılara qarşı törədilmiş 31 Mart soyqırımıdır. Əlbəttə ki, Azərbaycanlılara, ümumiyyətə Türkə qarşı törədilmiş hər hansı cinayəti,vəhşiliyi ermənisiz təsəvvür etmək,erməni iştirakı olmadan icra edildiyini görmək mümkün deyil.Bu soyqırımla milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edildi. Ermənilər evləri yandırır, insaniarı diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarliq abidələri, məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılır. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilirdi. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı öldürülüb, Şamaxıda 58 kənd dağıdılmış 7 min nəfər (1.653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunmuş; qətliam həyata keçirilmişdir...

Bu gün martın 31-i, 31 Mart soyqırımı qurbanlarının, şəhidlərinin anım günüdür. Bu münasibətlə Balakəndə 31Mart soyqırım qurbanlarının, şəhidlərinin anım günü tədbiri keçirildi. Tədbirdə rayon rəhbəri İslam Rzayev RİH kollektiviylə, hörmətli millət vəkili Nəsib Məhəməliyev, hüquq mühafizə orqanlarının rəhbərləri, təhsil, səhiyyə, mədəniyyət, bir sıra hökümət təşkilatlarıyla yanaşı qeyri hökümət təşkilatlarının nümayəndələri, şəhid ailələri, rayon ictimaiyyəti iştirak etdilər. Çıxışa ilk başlayan Rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev o ağrılı, acılı günlərdən danışaraq qan yaddaşımızı təzələdi. Çıxış edən millət vəkili Nəsib Məhəməliyev çıxışında 31 Mart soyqırımını əhatəli, geniş miqyasda ələ alaraq bunun sadəcə Azərbaycanlıra qarşı deyil, umumiyyətlə Türk dünyasına, birliyinə edilən təcavvüz, soyqırım olduğunu, Türk aləmini parçalamaq,biri-birindən ayırmaq, yer üzündən silmək məqsədi daşıdığını bildirdi. Bu gün də o pis niyyət, murdar əməl sahiblərinin dinc durmadığını,Türk Dövlətlərinin inkişaf etməsinin, irəli getməsinin, böyüməsinin qarşısında ciddi əngəllər yaratdığını, müdaxilələr etdiyini, türk dövlətlərinin içini qarışdırmağa çalışdıqlarını nəzərə çatdırdı. Ulu öndər Heydər Əliyevlə işləmiş biri olaraq Heydər Əliyevin 31 Mart soyqırımını dünyaya tanıtmaq, ona hüquqi qiymət verilməsi, unudulmaması, xatirəsini ölkədə və dünyda əbədiləşdirmək yönündə gördüyü işləri xüsusilə vurğuladı. Balakəndə ucaldılan 31 Mart soyqırım abidəsi respublikada ilk soyqırım abidələrindəndir. Bu abidə məhz Heydər Əliyeyin prezidentliyi, Nəsib Məhəməliyevin Balakəndə icra başçısı vəzifəsində işlədiyi zaman, ulu öndərin təşəbbüsü Nəsib müəllimin icrasıyla ucaldılıb.

31 Mart soyqırım qurbanlarının, şəhidlərinin xatirəsini dərin ehtiramla anırıq.

**YENİ BALAKƏN**

# İftar süfrəsi





Ramazan ayında oruclu insanın ən xoşbəxt olduğu anlarından biri orucunu iftar etdiyi,açdığı andır...

Bu gün Balakən Rayon İcra Hakimiyyəti "Balakən" sarayda böyük iftar süfrəsi açdı. Rayonun hər yerindən gələn oruclu insanların iştirak etdiyi məclisi Balakən Qazısı, imam İbrahim əfəndi açaraq sözü rayon rəhbəri İslam Rzayevə verdi. İslam müəllim oruclu, inanclı insanlarımıza tutduqları orucların, etdiyi ibadətlərin Allahu Təala tərəfindən qəbulunu diləyərək onları hər iki bayram münasibətilə təbrik etdi. Püştətala kənd imamı,hafiz Qurbanın qiraətində mübarək Qurani Kərimdən ayətlər oxundu. Tədbirdə yaşlılar, şəhid ailələri, qazilər, din xadimləri, qeyri hökümət təşkilatlarının nümayəndələri, ağsaqqallar, bəzi idarə təşkilatların hörmətli rəhbərləri, hüquq mühafizə nümyəndələri də iştirak etdilər...

Allah hər kəsin ibadətini, niyyətini qəbul etsin.

**YENİ BALAKƏN**

# "Sən bir incisən" adlı poeziya gecəsi



İnsan həyatı tarixlərə yazı ilə yazılır. Və bu yazını yazan qələmdir deyərək hər zaman qələmə böyük hörmətlə yanaşmışıq. O qələm ki, şairlərin, yazıçıların əlində itilənərək böyük bir əsərə çevrilir. Qələm hər kəsin əlində ola bilər. Lakin şairlərin və yazıçıların əlində həmişə zəri və ondan tökülən dürrləri ilə seçilib.

Mart ayı bayramlar ayıdır. Bu ayın 3-ü elə yazarlar günüdür. Bu gün Balakən rayonunda, Balakəndə 1965 ci ildən təməli qoyulmuş və bu günə qədər fəaliyyət göstərən "ÇEŞMƏ" ədəbi birliyinin Yazarlar Gününə həsr edilmiş "Sən bir incisən" adlı poeziya gecəsi keçirildi. Poeziya gecəsində rayonumuzun şair və yazıçıları. Rayon ziyalıları və gənclər iştirak edirdi. Tədbirimiz son dərəcə maraqlı və çox mənalı keçdi. Rayonumuzun qələm əhlindən olan Akif Məmmədli, Elsevər İsmayılov, Nəfisət Vahid, Rəşad Balakənli, Asiman Qəlbinur, Anar Xəyal, Pərixanım Rzayeva, Gülşən Kərimova, Şöyüb Mikayılov, Şaban Daşdəmirov və b. öz gözəl şeirləri ilə məclisə gələn qonaqları salamladılar. Öz gözəl musiqi və mahnıları ilə poeziya gecəsinə rəng qatan rayonumuzun müğənniləri Rasim Sərkərov və Rasim Alqayev şairlərimizin şeirlərinə bəstələnmiş mahnılar ifa etdilər. Poeziya gecəsindən xoş təəssüratlarla ayrılan qonaqlar, hər il 3 mart Yazarlar Gününün keçirilməsi təklifini irəli sürdülər. Hər kəs bu təkliflə həmrəy olduqlarını bildirdilər. Poeziya gecəsinin sonunda rayonumuzun "Çeşmə" ədəbi birliyinə məktub vasitəsilə göndrilən təbriklər səslələndirildi.

Şairlərimizə, yazıçılarımıza yaradıcılıq uğurları arzulayılayırıq. Qələmimiz iti,sözümüz kəsərli olsun.

**Nəfisət Vahid**
**Yazıçı publisist.**

# "Tarixin izi"ndə adlı intellektual yarış






Balakən rayon Tarix-Diyarşünaslıq Muzeyi, Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Balakən rayon komitəsi və Balakən rayonu üzrə təhsil sektorunun qarşılıqlı əməkdaşlığı çərçivəsində Nəsimi adına Balakən şəhər 2 saylı tam orta məktəbdə, məktəblərarası "Tarixin izi"ndə adlı intellektual yarış keçirildi.

İntellektual yarışın açılış mərasimində Balakən rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Turan Musayev, Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Balakən rayon komitəsinin sədri Etibar Çompuzov, tarix üzrə fəlsəfə doktoru, alim Akif Məmmədli, Balakən rayonu üzrə təhsil sektorunun aparıcı məsləhətçisi Sevinc İbadova, təhsil işçiləri və şagirdlər iştirak etdilər.

Tədbir Dövlət Himninin səslən-dirilməsi, ardınca isə Vətənin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Tarixçi alim Akif Məmmədli çıxış edərək ölkəmizin tarixi keçmişinin öyrənilməsi və təbliğinin əhəmiyyətini vurğulayıb. Habelə bu istiqamətdə keçirilən intellektual yarışların da tarixi mövzular üzrə maarifləmədə xüsusi rola malik olduğunu qeyd etdi.

2 mərhələ üzrə ümumilikdə 30 sualdan ibarət olan intellektual yarışın nəticələrinə əsasən, I-ci yeri Nizami adına şəhər 1 saylı məktəbin "Nizami cədid", II-ci yeri Talalalar kənd 1 saylı məktəbin "Zaman", III yeri isə Humanitar və texniki təmayüllü liseyin "Suqovuşan" komandası tutub.

Qalib komanda üzvləri fəxri fərman və medallarla təltif edilərək I-ci yeri tutmuş komandaya isə həmçinin kubok təqdim olundu.

Sonda xatirə şəkil çəkildi.

**YENİ BALAKƏN**

# Torpağın yaz qayğıları



Gün dəydi torpağın donmuş üzünə,
Şirin qış nağılı bitdi bu yerdə.
Təbiət sonqoydu gün həsrətinə.
Səhər al qumaşa boyandı yer də.

Günəşin gözündən nurlar içərək,
Oyandı kainat qış yuxusundan:
Vüsala yetişən sevgililərtək
Torpaqla öpüşdü hünərvər insan.

Təzələndi rəngi-ruhu dünyanın-
Təbiət qovuşdu öz baharına,
O,qol-qanad verdi elin-obanın
Zəhmətə bağlanan arzularına.

Torpaq yiyəsini hayladı:Ehey!-
Vüsət əyyamıdır ilin baharı.
Yol-izi,çöl-düzü səhmanlayın hey,
Bitib tükənərmi yaz qayğıları?

Yayın sürüləri yaz otlağına
Yenə də yandırsın çoban tütəyi;
Bağ-bağat möhtacdır yaz qulluğuna,
Kolları budayın, ağac belləyin.

Torpağın arzusu günəşdir,sudur,
Torpaqsa insanın hər arzusudur.
Tər töküb əlləşən torpaq öyünər.
Əl işdən soyusa səhraya dönər.

Çəkin tarlalara polad atları,
Şırım-şırım olsun yerin sinəsi.
Orda qarşılayaq biz ilk baharı,
Torpağa can versin insan nəfəsi.

Günəşlə oyanan,ayla bir yatan,
Halal zəhmətiylə bolluq yaradan
Yurdumun oğlu-qızı var olsun,
Bizim nəsibimiz novbahar olsun.

**Xutra Ramazan**

# Bu gün bayramlarımızdan müqəddəs Ramazan bayramıdır



Bu gün müqəddəs bayramlarımızdan Ramazan bayramıdır.Ramazan ayı boyunca oruc tutan,ibadət eləyən, xeyir işlər görənlər gəlbinin dərinliklərində ayrılmağı istəməsələr də Ramazan ayı ilə vidalaşırlar.Ramazanın son ibadəti bayram namazıdır.Dünyanın və ölkəmizin hər yerində olduğu kimi Balakən rayonunun bir çox məscidlərində o cümlədən Balakən şəhər Mərkəzi Cümə Məscidində də bayram namazı qılındı. Möminlər namazdan sonra da bayramlaşaraq biri birini təbrik edir, ibadətlərinin Allahdan qəbul olmasını diləyirdilər. Namaz öncəsi məsciddə çıxış edən Balakən qazısı İbrahim əfəndi rayon rəhbərinin bayram təbriki məktubunu oxuyaraq inanc əhlini və cəmi Balakənliləri bayram münasibətilə təbrik etdi. Neçə, necə belə Ramazanlarda görüşmək, bayramlaşmaq diləyilə.

**Ramazan ABAL**

# Balakən Rayon Mərkəzi Xəstəxanasının Dəstək xidmətləri şöbəsinin mətbəx bölməsi




Xəstəxanalarda qidalanma üçün mühüm rol oynayır. Əsas müalicə və xəstələrin bərpa prosesi məqsəd hər bir xəstənin tibbi göstərişlərinə uyğun balanslı qidalanmanı təmin etməkdir. Gündəlik menyu "pəhriz stolları"ndan kənara çıxa bilməz. Qidalanma hazır yeməklər şəklində (məsələn, xəstəxananın yeməkxanasında) təqdim olunur və ya palatalara gətirilir. Bəzi hallarda uzun müddət müalicə alan xəstələr üçün fərdi menyular nəzərdə tutulur.

Yeməklər bütün şöbələrə steril qaydada, xüsusi termobokslarda çatdırılır. Hər hansı bir zəhərlənmə ehtimalına qarşı hər gün təzə tərəvəzlərdən və keyfiyyətli ərzaqlardan hazırlanan yeməklərdən nümunə götürülür.

Yeməkxanamızda müəyyən olunmuş nomenklaturaya görə 15 pəhriz masası var. Xəstələr pəhriz masasına görə 3 əsas, 1 ara yemək olmaqla gün ərzində 3 dəfə qidalanırlar.

**YENİ BALAKƏN**

# Yol mədəniyyətdir, palçıq, gölməçə isə mədəni deyil



"Yeni Balakən" qəzetinin May 2024 tarixli nömrəsində Mahamalar kəndinin sakinləri iki kənd (Gərəkli və Mahamalar) mərkəzini birləşdirən əsas yolun asfalt örtüyü ilə üzlənməsi üçün qəzet (media) vasitəsilə hökumətə müraciət etmişdilər.O zaman deyildi ki,artıq cari büdcə təsdiqlənib, qaldı 2025-in büdcəsinə. 2025-in mart ayı artıq büdcənin xərclənməyə başladığı aydır. Mahamalar kənd sakinləri səbrlə gözləyirlər. Media olaraq qaldırılan, işıqlandırılan məsələlərə istər məmur yanaşması, istərsə də həlli istiqamətindəki addımların təqibçisi kimi istədik ki, xatırladaq, yada salaq. Sakinlər istəklərində (tələblərində) israrlıdırlar, növbəti addımları üçün qərarlıdırlar.

**YENİ BALAKƏN**

# Kanalizasiya problemi







Uzun müddət idi ki, Balakən şəhərinin düz mərkəzində,H.Əliyev prospektində kanalizasiya quyusu daşararaq bütün pisliyi də prospekt boyu axırdı.Küçədən sürətlə ötən maşınlar axan pisliyi səkidə hərəkət edən piyadaların üstünə sıçradırdı.Bu məsələ ilə əlaqədar maraqlananda dedilər ki,ən yaxın zamanda həll ediləcək.

Nəhayət ki, bu gün məsələ həll olunur.Balakən RİH-i məsələni nəzarətə götürərək dərhal aidiyyatı orqanlar tərəfindən problemin aradan qaldırılması istiqamətində işlərin aparılmasını təşkil etdi.

**YENİ BALAKƏN**

# 01.01.2025-ci il vəziyyətinə Balakən rayonunun demoqrafik göstəriciləri

Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 330 nəfər və ya 0,3 faiz artaraq 2025-ci il yanvar ayının 1-i vəziyyətinə 101019 nəfərə çatmışdır. Əhalinin 15857 nəfərini və ya 15,7 faizini şəhər, 85162 nəfərini və ya 84,3 faizini kənd sakinləri, 49656 nəfərini və ya 49,2 faizini kişilər, 51363 nəfərini və ya 50,8 faizini isə qadınlar təşkil edir.

### Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | 2024-cü ildə | 2023-cü ildə | artım (+) azalma (-) | 2024-cü ildə | 2023-cü ildə | 2024-cü il 2023-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 312 | 469 | -157 | 3,1 | 4,6 | 67,4 |
| Doğulanlar | 898 | 1057 | -159 | 8,9 | 10,5 | 84,8 |
| Ölənlər | 586 | 588 | -2 | 5,8 | 5,9 | 98,3 |
| Nikahlar | 435 | 498 | -63 | 4,3 | 5,0 | 86,0 |
| Boşanmalar | 146 | 187 | -41 | 1,4 | 1,9 | 73,4 |

2024-cü il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 898 doğulan körpə qeydə alınmış və 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,5-dən 8,9-a düşmüşdür. Doğulan körpələrin 448 nəferi və ya 49,9 faizi oğlan uşaqları, 450 nəfəri və ya 50,1 faizi isə qız uşaqları olmuşdur.

2024-cü il ərzində rayonda 586 ölüm halı qeydə alınmış və 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,9-dan 5,8-ə düşmüşdür.

2024-cü il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 435 nikah və 146 boşanma halları qeydə alınmışdır. 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,0-dən 4,3-dək və boşanmaların sayı 1,9-dan 1,4-dək azalmışdır.




2024-cü il ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən qeydə alınmış rayona daimi yaşamaq üçün gələn və rayondan gedənlərin miqrasiya saldosu müsbət 18 nəfər təşkil etmişdir.

**Əsəbəli ALQAYEV,**
**Balakən Rayon Statistika İdarəsinin rəis müavini**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100